

*Yılmaz Özdil*

# Atatürkün "Lətifə"si...

9 sentyabr...

İzmirin dağlarında çiçəklər açırdı.

Bugünkü Kültürpark ərazisində yerləşən erməni məhəlləsində yanğın başladı.

İzmirə bu son pisliyi edənlər imbatın (havalandırma sistemi) təsiri ilə türk məhəlləsinə də yayılacağını təxmin edirdilər.

Külək təxminləri tərsinə çevirdi.

O dövrdə Punta adlanan Levantin məhəlləsi Alsancakı yox eləyib Kordona çatdı.

***

Salih Bozok o ərəfədə kiçik bir süvari birliyi ilə Güzelyalını gəzirdi. Baş Komandanlıq qərargahı olaraq istifadə üçün yanğından uzaq bir bina axtarırdı.

Göztepedəki köşkü tapdı.

***

Lətifənin ürəyi az qala yerindən çıxacaqdı.

Atatürkün xəyalı ilə İzmirə gəlmişdi.

Atatürk isə şəxsən özü onun yanına gəlirdi.

***

Lətifə İzmirdə doğulmuşdu.

ABŞ və İngiltərinin tütün və pambıq bazarlarında söz sahibi olan, şəhərin ən zəngin taciri Muammer bəyin qızı idi.

İbtidai təhsilini evə gətirilən ingilis və alman müəllimlərlə bitirmiş, sonra İstanbulda Arnavutköy Amerikan Kollecində oxumuşdu. İngiltərədə Tudor Hall Schoolda dilini inkişaf etdirmişdi.

Halide Edip Adıvarın tələbəsi idi, Tevfik Fikretdən, Halit Ziya Uşakgildən dərs almışdı.

İngilis dilini ana dili səviyyəsində, almanca, fransızca, farsca ondan da yaxşı danışa bilirdi. O, həmçinin yunanca və italyanca da bilirdi.

Pianoda ifa edə bilirdi.

Atın yəhərinə süvari kimi otururdu, mükəmməl at çapırdı.

Sorbonne Universitetində siyasət və hüquq üzrə oxuyurdu.

***

Məmləkət işğal olunan kimi ailəliklə Fransaya köçmüşdülər.

Atlantik Okeanının sahilində sahil cənnəti Biarritzdə yaşayırdılar.

Təhlükədən uzaq idi, amma Vətən torpaqları çeynənən zaman qürbətdə olmaq bu azad qızın ürəyinə əzab verirdi.

”Burada bundan artıq qala bilmərəm” deyərək atasına qarşı çıxdı. Sakarya savaşının qazanıldığını öyrənən kimi universitet təhsilini yarıda qoydu, Marsilyadan gəmiylə İzmirə qayıtdı.

Babası Sadıq bəyin Göztepedəki köşkünə köçdü.

***

Boynundakı qapaqlı medalyonda Atatürkün şəklini daşıyırdı. Bir fransız qəzetindəki xəbərdən kəsmişdi.

***

Və nəhayət, o an - 9 sentyabr.

Küllərindən yenidən doğulan gözəl İzmir, axşamın qaranlığında məşək kimi yanırdı.

Atatürkü aparan avtomobil bənövşə qoxulu, bənövşə rəngli köşkün baxçasına girdi.

Lətidə onu qapıda qarşıladı.

”İzmir”ə təşrifinizlə türk milləti muradına çatdı, evimə şərəf verməyinizlə mən də muradıma çatmış sayılıram, minnətdaram, xoş gəldiniz, paşam” - dedi.

***

Terastda süfrə qurulmuşdu.

Mustafa Kemal, İsmet paşa, Fevzi paşa, Ruşen Eşref, Falih Rıfkı, Yakup Kadri...

Yeməklər gözəl idi. Xüsusilə ”kalamar tava”nın dadını heç biri unutmayacaqdı, xatirələrində yazacaqdılar.

Fevzi paşa xaric hamı qədəhini doldurdu.

***

Atatürkün o möhtəşəm qızı və o sehirli gecəni unutması mümkün deyildi.

Ankaraya qayıdar-qayıtmaz Milli Mübarizə boyunca mindiyi ərəb atı Sakaryanı Lətifəyə göndərdi.

Nişan hədiyyəsi idi.

***

29 yanvar 1923-cü ildə evləndilər.

***

Elçilik olmadı.

Atatürk şəxsən özü Lətifəyə evlilik təklifi etdi.

Qaynatası ilə nikah gününün tarixini müəyyənləşdirdi.

***

İzmir müftisi çağırıldı.

Yerdə yox, Masada oturdular.

***

Lətifə tünd boz sadə bir don geyinmişdi, Parisdən almışdı.

Saçına ağ ipək örtük atmışdı.

Əslində əlbəttə ağappaq bir gəlinlik geyinmək istəyirdi, amma qaynanası Zübeydə xanım yeni vəfat etmişdi, yaxşı çıxmazdı.

Həyatının bu ən xoşbəxt günündə fədakarlıq etməyə məcbur idi.

***

Atatürk üç parçalı tünd mavi kostyum geyinmişdi.

Qırmızı qalstuk taxmışdı.

Kostyumun pencəyinin döş cibinə ağ yaylıq qoymuşdu.

***

O zamanlar cümə axşamı evlənirdilər, adət idi.

Amma onlar bazaar ertəsi evləndilər.

Nikahda qadın olmazdı, gəlin əvəzinə vəkili iştirak edirdi.

Amma Lətifə şəxsən özü iştirak edirdi.

***

Atatürk yoldaşına kibrit qutusu böyüklüyündə qızıl qutuda Qurani-Kərim hədiyyə etdi.

Lətifə isə ona gümüş siqara tabakıyla bir qalstuk iynəsi verdi.

***

Nikahdan sonra 50-yə qədər qonağa çay qonaqlığı verildi.

Qonaqlara şirniyyatlar, kasıblara yemək paylanıldı.

***

”Lətifə” demirdi, ”Latif” deyirdi, ”dişi yavərim” deyirdi.

Lətifə çox tezdən qalxır, xarici qəzetləri oxuyub qeydlər aparır, səhər qəhvəsilə birlikdə Atatürkə aparırdı.

***

Məmləkətdə gəzintilərə yoldaşlıq edir, Anadolu qadınlarını təəssübkeşliyə qarşı təşviq edir, xarici diplomatlara ayrılan lojadan TBMM iclaslarını izləyir, bəzi gözəl axşamlarda Atatürkün sevdiyi musiqiləri pianoda ifa edirdi.

***

”Kamal” deyə xitab edirdi.

Yoldaşının olmadığı yerlərdə üçünkü adamla söhbət edəndə də ”qazi” və ya ”cümhurrəisi” deyə bəhs etmədi. ”Kamal bu qərarı verdi”, ”Kamal ora getdi” deyərdi.

***

Qadınların hələ seçmək və seçilmək haqqı yox ikən səs yığan ilk qadın idi.

1923-cü ilin iyununda keçirilən Türkiyənin ilk ümumi seçkilərində namizəd olmadığı halda, hüquqi namizəd olmaq imkanı olmadığı halda, İzmirdə və Konyada Lətifəyə səs verdilər.

O, təşəkkür teleqrafı yayımladı.

”Mənə millət vəkili seçkilərində səs verilməyini şəxsim adına deyil, türk qadınına yönəlmiş bir təqdir kimi qəbul edirəm, bu səbəblə həyəcanla şükranlarımı ərz edirəm” - dedi.

(ardı var)

Dilimizə uyğunlaşdıran
Eminquey

Ədalət.- 2020.- 10 sentyabr. S. 3.